*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 38-47* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.2.38*

# Cümhuriyyət dövrü mətbuatında əsgəri nəğmələr: zamanın çağırışları və bədii-estetik siqlət

**Elməddin Quliyev**
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, doktorant
E-mail: el-84@list.ru

**Annotasiya.** 1918-ci il 28 may tarixində Azərbaycan Cümhuriyyəti yeni, müstəqil, azad, demokratik dövlət olaraq dünyanın siyasi xəritəsindən boy göstərdi. Hökumət üzvləri Tiflisdən Gəncə şəhərinə köçdükdən sonra dövlətçilik naminə mühüm qərarlara rəvac verildi. Azərbaycan Milli Şurası 1918-ci il 17 iyun tarixində İkinci Müvəqqəti Hökumətin tərkibini, onun hüquq və vəzifələrini təsdiq etdikdən sonra fəaliyyətini dayandırdı. Görkəmli ictimai-siyasi xadim Fətəli xan Xoyskinin rəhbərlik etdiyi İkinci Müvəqqəti Hökumət iyun ayının 19-da ölkədə baş verən fövqəladə prosesləri və mürəkkəb durumu nəzərə alaraq hərbi vəziyyət elan etdi və ictimai hadisələrə nəzarət Daxili İşlər Nazirliyinin və Qafqaz Müsəlman Ordusunun rəhbərliyinə həvalə olundu. Hökumətin 1918-ci il 21 iyun tarixli qərarı ilə "Qırmızı parça üzərində hazırlanmış ağ rəngli aypara və səkkiz guşə ulduzlu al bayraq – Azərbaycan bayrağı kimi qəbul edil"di. 26 iyun sərəncamı ilə "Müsəlman Korpusu"nun adı dəyişdirilərək "Xüsusi Azərbaycan Korpusu" adlandırıldı. Azərbaycan ordusunun təməl strukturuna çevrilən Xüsusi Azərbaycan Korpusunun sıralarını milli gənc qüvvələr hesabına genişləndirmək üçün orduya çağırış cəmiyyət, ziyalılar və ədiblər tərəfindən anlayışla qarşılandı. Milli Ordu quruculuğuna bəslənən ümumxalq sevgisi, məhəbbəti öncə öz ifadəsini əsgəri nəğmələrdə, marşlarda əks etdirdi. Qarşıda duran əsas vəzifə Cümhuriyyət dövrü mətbuatında əsgəri nəğmələri, hərbi marşları sistemli və kompleks şəkildə tədqiq etməkdən ibarətdir.
**Açar sözlər**: Azərbaycan Cümhuriyyəti, istiqlal, milli ordu, əsgəri nəğmələr, hərbi marş

**Məqalə tarixçəsi:** göndərilib – 02.10.2024; qəbul edilib – 22.10.2024

# Military songs in the press of the republic period: the challenges of time and artistic and aesthetic value

**Elmaddin Guliyev**
Institute of Manuscripts named after Mahammad Fuzuli of ANAS, Doctoral Student
E-mail: el-84@list.ru

**Abstract.** The Republic of Azerbaijan emerged on the political map of the world as a new, independent, free, and democratic state on May 28, 1918. After the members of the government relocated from Tbilisi to Ganja, significant decisions were made to strengthen statehood. On June 17, 1918, the National Council of Azerbaijan ceased its activities after approving the composition, rights, and obligations of the second Provisional Government.
On June 19, 1918, the second Provisional Government, headed by the prominent public and political figure Fatali Khan Khoyski, declared martial law, considering the extraordinary circumstances and complex situation in the country. Control over public events was assigned to the

leadership of the Ministry of Internal Affairs and the Caucasian Muslim Army. By government order on June 26, 1918, the name “Muslim Corps” was officially changed to “Special Azerbaijani Corps”.
The call to expand the ranks of the Special Azerbaijani Corps, which formed the foundation of the Azerbaijani army, by recruiting young national forces, was met with widespread support from society, intellectuals, and writers. National pride and enthusiasm for building the National Army were first expressed in military songs and marches. The primary task is to systematically and comprehensively study the military songs and marches published in the press during the Republican period.
**Keywords**: Azerbaijan Republic, Independence, National Army, military songs, military march

**Article history:** received – 02.10.2024; accepted − 22.10.2024

## Giriş / *Introduction*

Milli istiqlalını, azadlığını qazanmış, Cümhuriyyətini qurmuş gənclərin “Kiçik zabitan məktəb”lərinə, əsgəri xidmətini həyata keçirmək üçün milli ordu sıralarına dəvət olunması dövrün mətbuat orqanlarında geniş işıqlandırılırdı. Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadə “Açıq söz” qəzeti vasitəsilə milli orduda xidmət etməyə hazırlaşan gənclərə üz tutaraq yazırdı: “Ey məmləkətimizin istiqbalını təmin edənlər! Ey vətənimizin xələf övladları! Ey əsgərliyə dəvət olunan cavanlarımız! Əsgərliyə qoşunuz! Öz müqəddəs vəzifənizi ifa ediniz! Uca Tanrıya sənalar (dualar) ediniz ki, bu müqəddəs vəzifə əvvəlcə sizin öhdənizə düşdü” [10, s.1].

Müstəqil Azərbaycan Cümhuriyyətinin ordu quruculuğu sahəsində mühüm nailiyyətlərinin əldə edilməsində, şübhəsiz ki, vətənpərvər ruhda yazılmış əsgəri nəğmələrin, hərbi marşların rolu çox mühüm və əhəmiyyətli olmuşdur.

## Əsas hissə / *Main part*

Azərbaycan Cümhuriyyətinin müzəffər ordusu, müsəlləh əsgəri, igid, cəsur zabitləri, peşəkar komandirləri haqqında dövrün mətbuat orqanlarında sənətkarlarımız tərəfindən şeirlər yazılır, mahnılar qoşulur, əsgəri nəğmələr, hərbi marşlar bəstələnirdi. Müşahidələrə əsaslanıb əminliklə demək olar ki, hərbi marşlar, əsgəri nəğmələr mövzusu digər mövzulardan daha prioritet hesab edilirdi və elə bir milli şairə rast gəlmək mümkünsüzdür ki, onun yaradıcılığında orduya, əsgərə aid şeir, mahnı, marş olmasın. Cümhuriyyət dövründə hərbi mövzuda zamanın sosial sifarişinə çevrilmiş ilk poeziya nümunələrini yaradanlardan biri və ya birincisi, dövrün milli şairi, istiqlal şairi adlandırılan, görkəmli söz ustası Əhməd Cavad idi. Onun 1918-ci il 12 iyunda, Gəncədə yazdığı və “Gənclər yurdu” jurnalının ikinci sayında çap olunan “Marş” adlı şeiri Azərbaycanı və onun paytaxtı Bakı şəhərini bolşevik-daşnak silahlı birliklərindən azad etməyə tələsən Qafqaz İslam Ordusunun komandanı, general Nuru Paşanın arzusu ilə qələmə alınmış və ona həsr edilmişdir:

*“Millətimin tarixinə,*
*Şan və şərəf əkməliyim.*
*Şu qarşıda yad qələyə,*
*Bir al bayraq dikməliyim.*

*Düşmənlərə göstərdim ki,*
*Bənim kibi əsgəri yox.*

*Bənim qılınc vurmadığım,*
*Dünyanın heç yeri yox..."* [2, s.6]

Əhməd Cavad Gəncə şəhərində yazdığı beşbəndlik şeirinin sonunda belə bir qeyd də vermişdi: "Bu "Marş" Qafqaz İslam Ordusu baş komandanı Nuru Paşa həzrətlərinin arzusuna müvafiq bizim Azərbaycan Türk Ordusu üçün söylədim. Fəqət, hələlik bəstələnmədiyinə görə nasıl çıxacağı bəlli degildir" [2, s.6].

Şairin qeydindən məlum olur ki, şeirin adı "Marş" olsa da, əslində ona musiqi bəstələnməmişdir. İkincisi, ilk dəfə Əhməd Cavadın bu yığcam qeydindən bəllidir ki, "Qafqaz İslam Ordusu" sözün geniş mənasında "Azərbaycan Türk Ordusu"nun ekvivalentidir. Ə.Cavadın bu "Marş"ındakı "Al bayraq" ifadəsi Azərbaycan Cümhuriyyətinin o vaxt qüvvədə olan bayrağına işarədir.

Vətənpərvərlik coşğusu ilə yazılan və dərc edilən bu "Marş" Cümhuriyyətin yaranmasından iki həftə sonra hərbi mövzuda qələmə alınan ilk əsərdir. Şairin 1918-ci il 16 sentyabr tarixində yazdığı və "Dalğa" kitabçasında yer alan "Bismillah" şeirini isə Ə.Cavadın "Marş" əsərinin davamı kimi də qəbul etmək olar. "Bismillah"da şair erməni-daşnak və bolşeviklər tərəfindən işğal altında qalan Bakı şəhərinin qurtuluşu uğrunda qanlı mücadilə aparan "Azərbaycan Türk Ordusu"nun şücaətindən, qəhrəmanlığından, mərdliyindən, zəfər, qələbə əzmindən poetik bir dillə bəhs edirdi.

Məhəmməd Ümid Gəncəlinin "Azərbaycan vətənim şərqisi" mükəmməl poetik struktura malik, vətəni qorumağa, onun keşiyini çəkməyə hazırlaşan, əsgərliyə gedən mərd və mübariz oğullara çağırışdır. Əsərin sərlövhəsindəki "şərqi" sözü bizə məlum olmayan bəstəkar tərəfindən şeirə hərbi marş bəstələndiyi qənaətini möhkəmləndirir. Məhəmməd Ümid Gəncəli haqqında bioqrafik məlumat əldə etmək müşkülə çevrildi. Digər əsərləri barədə də dəqiq informasiya əldə etmək mümkün olmadı. Amma bir şeirindən də onun vətənsevər şair olduğu barədə aydın təsəvvür yaranır. Müəllif əsərinin yazılma tarixini "30 yanvar 1920" qeyd etsə də, şeir "Azərbaycan" qəzetinin 1920-ci il 4 fevral tarixində dərc olunmuşdur. "Azərbaycan vətənim şərqisi"ndə şair yazır:

*"Azərbaycan toprağıdır türk yurdunun yürəgi,*
*Hifz etməli o ölkəni - nasıl gözün bəbəgi.*
*Tarixə bax, unutma sən ulu baba, dədəyi,*
*Qan tökmüşlər bu vətənçün, həp çəkmişlər əməgi,*
*Vətən üçün, millət üçün gənclər getdi əskərə,*
*Könüllü get, sən də yazıl o mübarək səfərə.*

*...Bir hüdudun İsgəndərin səddi, qarlı Dağıstan,*
*Hər daşının daldasında yatmış yüzlərcə aslan,*
*Bir hüdudun Şiri-Xurşid, qədim tarixli İran,*
*Bir hüdudun Cənnət bağı, o qönçəli Gürcüstan,*
*Vətən üçün, millət üçün gənclər getdi əskərə,*
*Könüllü get, sən də yazıl o mübarək səfərə.*

*Hisar qalan Gökcə dağı, Koroğlunun yatağı,*
*Qayasına çıxıb tikmiş tərlan kimi otağı.*
*Şərur, Ordubad, Naxçıvan Azərbaycan budağı,*
*Qoyma girsin o mübarək yerə düşmən ayağı,*
*Vətən üçün, millət üçün gənclər getdi əskərə,*
*Könüllü get, sən də yazıl o mübarək səfərə".* [8, s.3]

Şeirdə Azərbaycan Cümhuriyyətinin dövlət hüdudları poetik, obrazlı dil ilə təsvir edilmişdir. Qonşu dövlətləri ardıcıllıqla sıralayan, İranın, Dağıstanın və Gürcüstanın adlarını vurğulayan Məhəmməd Ümid Gəncəli əsərində Ermənistanın adını çəkmir. “Hisar qalan Gökcə dağı, Koroğlunun yatağı...” – deyərək Azərbaycanın Qərb hüdudunun qala hasarı Göyçə dağı olduğunu və bu yerlərin Koroğlu yurdu, igidlər oylağı kimi tanındığını cəsarətlə, uzaqgörənliklə bəyan edirdi. Azərbaycanın qonşuları sırasında Rusiyanın adının çəkilməməsinin səbəbi o vaxt Dağıstanın müstəqil cümhuriyyət olması ilə şərtlənirdi. Əsərin qələmə alındığı tarixdə Azərbaycan Rusiya ilə həmsərhəd deyildi.

Şairin birmənalı olaraq, “Şərur, Ordubad, Naxçıvan Azərbaycan budağı” adlandırması zamanın bulanlıq suallarına aydın və sərt cavab idi. Cümhuriyyət dövründə tez-tez qondarma Ermənistan respublikasının mətbuatı və ayrı-ayrı məmurları Şərur, Ordubad və Naxçıvan barəsində məsuliyyətsizcəsinə, heç bir tarixi sənədlərə əsaslanmadan ərazi iddiaları səsləndirirdilər. Əslində bu xatırlatma hərbi rəhbərliyə, eyni zamanda vətəni göz bəbəyi kimi qorumaq üçün əsgərliyə, “o mübarək səfərə” hazırlaşan gənclərə müdrik valideyn tövsiyəsi, ağsaqqal öyüd-nəsihəti idi. Çünki şair Azərbaycan torpağını Türk yurdunun, Turan elinin çarpan ürəyi, döyünən qəlbi hesab edirdi. Bu şeir sonrakı nəşrlərdə transliterasiya olunaraq gənc nəslə təəssüf ki, qüsurlu şəkildə çatdırılmışdır. Ədəbiyyatşünas, professor Alxan Bayramoğlu 2003-cü ildə yazdığı “Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat” kitabına tam şəkildə daxil etdiyi Məhəmməd Ümid Gəncəlinin “Azərbaycan vətənim şərqisi”ni də ilk mənbə ilə müqayisədə yanlışlığa yol verdiyi məlum olur. “Azərbaycan vətənim şərqisi” şeirinin dördüncü bəndinin birinci misrası “Hisar qalan Gökcə dağı, Koroğlunun yatağı...” əvəzinə A.Bayramoğlu belə oxumuşdur: “Hisar – fələk Gəncə dağı, Koroğlunun yatağı” [1, s.207-208].

Aydın müşahidə edilir ki, tədqiqatçı-alim “qala” sözünü “fələk”, “Gökcə” kəlməsini isə “Gəncə” şəklində yanlış oxumaqla, Cümhuriyyətin coğrafi hüdudlarını, bəlli siyasi sərhədlərini təhrif etmiş, əsərin məna və məzmununa ciddi xələl gətirmişdir.

Cümhuriyyət dönəmində əsgəri nəğmələr yazıb-yaradan ədiblərdən Hacı Kərim Sanılının adını xüsusi vurğulamaq lazımdır. O Cümhuriyyət Parlamentinin Sosialistlər fraksiyasının üzvü idi və bəzən bu siyasi məkanda baş verən mübahisələri nəzmə çəkməkdən çəkinmirdi. Xüsusilə onun “Parlamendə deyişmə” adlı Məhəmməd Əmin ilə Ağamalı oğlunun firqələrarası ziddiyyət təşkil edən düşüncələrini lirik bir tərzdə şeirə çevirməsi və çap etdirməsi maraq doğururdu. Hacı Kərim Sanılının vətənin çətin günlərində qələmə aldığı “Marş” şeirini xalqa, cəmiyyətə, Azəri türklərinə ünvanlanmış, nəzmlə yazılmış bədii müraciət kimi də dəyərləndirmək olar:

*“Azəri türkləri qoyma düşməni,*
*O gələ sizləri eyliyə əsir!*
*Bəzən zülüm ilə əzdilər səni,*
*Həm dilin, adətin etdilər həqir!*

*Bu vətən sizlərin köhnə yurdudur,*
*Canınız, qanınız onda bəslənir!*
*Qal (qalmaqal) qalxır qardaşım bağla xəncərin,*
*Xunxarlara bin övlad istənir!”* [11, s.12-13]

Şair vətənin başı üzərini almış qara buludlardan, məkrli hiylələrə əl atmış düşmən qüvvələrindən xəbərdardır. H.K.Sanılının “Marş” şeiri qaniçənlərə, irticaya, işğalçılara qarşı vətənpərvər gəncləri, yurdsevər oğulları birliyə, mübarizəyə çağırışdır.

Əbdülrəhman Əbdülrəhman oğlu Dai (1898-1937) əslən Bakının Bülbülə kəndindəndir. Bədii yaradıcılığının ən parlaq və uğurlu kəsimi Cümhuriyyət dönəminə təsadüf edir. Nəşr etdirdiyi beş

kitabdan ikisi Cümhuriyyətəqədər ("Rəhimli səyyah" 1917 və "Fəhlənin nitqi" 1917), üçü isə İstiqlal dövründə ("Qurunun oduna yaş da yanar" 1918, "Qanqal" 1919 və "Əskəri nəğmələr" 1919) çap olunmuşdur. Əbdülrəhman Dainin son iki kitabı – "Qanqal" və "Əskəri nəğmələr" Cümhuriyyətin "Hökumət mətbəəsi"ndə dərc edilmiş və yayımlanmışdır. Xüsusilə əsgəri nəğmələr, hərbi marşlar məcmuə və toplularını xalqın öz sevimli ordusuna, igid əskərinə, cəsur zabit və komandirlərinə şərqi buketi, nəğmə çələngi, sevgi, məhəbbət gül dəstəsinin rəmzi ifadəsi kimi də qəbul etmək mümkündür. Millət öz təhlükəsizliyinin keşiyində dayanan övladlarını öymək və dəyərləndirməklə xalq – ordu, xalq – dövlət qütbləri arasında salınmış körpüləri, mövcud vəhdəti daha da möhkəmləndirir və sarsılmaz, monolit birliyə çevirirdi. Belə müqəddəs vəhdətə, bütövlüyə xidmət edən məcmuələrdən biri də Əbdülrəhman Dainin "Əskəri nəğmələr"idir.

Nəşrin titul səhifəsində toplunun "birinci hissə"si və müəllifin "5-ci əsər"i olduğu qeyd edilmiş, "Camei (toplayanı) və naşiri: Əbdülrəhman Dai" sözləri yazılmışdır. Qısa və yığcam kəlmələrin məna yükündən bəlli olur ki, Əbdül-rəhman Dai "Əskəri nəğmələr"in titulunda "birinci hissə" söz birləşməsini yazmaqla kitabın növbəti saylarının da nəşr olunacağını oxucularına anons etmiş, "5-ci əsər" ilə kitablarının sayını bildirsə də, "Camei və naşiri: Əbdülrəhman Dai" qeydi ilə müəlliflik məsələsinə qismən aydınlıq gətirmişdir. Məcmuədəki hərbi marşların, əsgəri nəğmələrin anonim verilməsi, mənbə və qaynaqların göstərilməməsi əsərlərin ən azı bir qisminin Əbdülrəhman Daiyə məxsusluğunu iqrar edir. Bu ehtimal topluda Ə.Dainin üslubuna uyğun şeirlərin yer alması ilə də ehtiva olunur.

Əbdülrəhman Dainin "Əskəri nəğmələr"inə daxil edilmiş marşlar mübariz əhval-ruhiyyəsi, döyüş əzmi, vətənpərvərlik coşqusu ilə diqqəti cəlb edir:

*"Bu sancaq bizlərə qanlı kəfən olacaq – 2,*
*Yaxında şölənəcək, hər yer, hər qucaq – 2.*
*Qoşar addım irəli, dönməyəlim biz geri,*
*İrəli, irəli, Azərbaycan əskəri.*
*İrəli, İrəli, vətən fəda, irəli!"* [5, s.4]

"Marş"ın birinci beytinin sonunda yazılmış "2" rəqəmi musiqinin nəqəratına işarədir. Bu fakt marşın həm də ifa olunduğunu təsdiqləyən atribusiyadır. Təqdim edilən nümunədən məlumdur ki, "Marş" Azərbaycan əsgəri, milli ordu üçün yazılıb. "Ya qazi ol, ya şəhid" anlamı istinad olunan şeirdə ya "Bu sancaq bizlərə qanlı kəfən olacaq", ya da ay-ulduzlu sancağımız, milli bayrağımız zəfər, qələbə müjdəsinin rəmzi kimi uca, mavi göylərin bəyaz yaxasını bəzəyəcək, yüksəkliklərə qanadlanan əsgəri nəğmələrilə, hərbi marşlarla dost ellərə, Turan dünyasına salamlar söyləyəcəkdir.

Əbdülrəhman Dainin "Əskəri nəğmələr"inə daxil edilmiş digər bir "Marş"da Ana və Vətən qarşısında əsgər oğulların sədaqət andını içdiyinin canlı şahidi olub, onların yurdsevərliyinə, fədakarlığına, cəsurluğuna heyran qalmaya bilmirsən. Əskəri "Marş"da deyilir:

*"Qafqaziyyə dağları, çiçəklər açar,*
*Altı gümüş ordu sırmalar saçar,*
*Pozulmuş düşmənlər yel kimi qaçar,*
*Kader böylə imiş heybətli (izzətli) ana,*
*Canım fəda olsun Azərbaycana,*
*Qanım halal olsun Azərbaycana!"* [5, s.12]

Bəzi marşların mətnindən məlum olmur ki, əsər hansı Türk ölkəsinin ordusu üçün yazılıb. Ə.Dainin yazdığı marşlarda Azərbaycan ordusunun generallarının, məşhur komandirlərinin, zabitlərinin adı yer alır, gənc əsgərlərin təlimlərdə əskəri addımlar ilə hərbi marşları xorla oxuması

onlarda vətənə məhəbbət duyğusu ilə yanaşı, komandirlərə sevgi və sayğı hissinin yüksəldilməsinə də xidmət edirdi. Marşlarda bəzən hərbi and anlamının gənc əsgərlərə, igid yurdsevərlərə musiqi vasitəsilə aşılanması digər üsul və təbliğat növlərindən daha effektli, səmərəli olurdu. Yüzlərlə gəncin əskəri addımlarının ritmi altında "Canım fəda olsun Azərbaycana, Qanım halal olsun Azərbaycana!" – deyə xorla səsləndirilməsi vətənə vəfanın, vurğunluğun və sarsılmaz sədaqətin pozulmaz andı kimi səslənir, qəbul olunurdu.

Araşdırma zamanı bəlli oldu ki, Ə.Dainin toplayıb tərtib və nəşr etdiyi "Əskəri nəğmələr"inin bir qismi Cümhuriyyət dövründə daha çox satirik şeirlərilə tanınan Balaqardaş Səttar oğlu Əlimuradzadənin "Azərbaycan" qəzetinin mətbəəsində çap olunan "Ordu marşları"nın [12, s.16] bəzi mətnləri ilə eynidir. Xüsusilə "Əskəri marş" adı ilə Birinci Qarabağ savaşı dövründə sevilən və "Annəm məni yetişdirdi bu yerlərə yolladı" misrası ilə başlayan məşhur türkiyəli şair Ali Kaminin "Marş"ı Səttaroğlunun "Ordu marşları" ilə paralel Ə.Dainin "Əskəri nəğmələr"ində də yer almışdır. Şeirin ilk misrasından, ilk beytindən bəllidir ki, əsər Qafqaz İslam Ordusuna həsr edilmiş və türk ellərindən Azərbaycanın köməyinə tələsən bir türk əskərinin, lirik "mən"in dili ilə şərqinin məzmunu nəql olunur. Bu fikri mətnin 1919-cu il nəşri də təsdiqləyir. Əbdülrəhman Dainin "Əskəri nəğmələr"ində vurğuladığımız "Marş"ın nəqarat hissəsində də Qafqaz İslam Ordusuna işarə edilərək yazılırdı:

*"Arş irəli! Marş irəli! Qafqazın şanlı əsgəri!*
*Arş irəli! Marş irəli! Qafqazlılar dönməz geri!"* [5, s.13]

Bakı şəhərində 1919-cu ildə ilk dəfə Ə.Dainin və Balaqardaş Səttaroğlunun adı çəkilən məcmuələrində nəşr olunan bu "Marş"ı bəzi tədqiqatçılar Osmanlı ordusunun Yəmən savaşı (1871-1872) zamanı ifa olunmuş "Alay marşı" hesab edir. Tarixi təcrübə təsdiqləyir ki, eyni musiqinin notu üzərində bəzən bir və ya bir neçə uyğun gələn fərqli mətnlərdən uğurla istifadə olunmuşdur. Şübhəsiz ki, mətnin ilk çap versiyasına əsaslanıb birmənalı qeyd edirik ki, "Qafqazın şanlı əsgəri" adlandırılan şeirin Yəmən savaşına aid olunması məsələsi məntiqi gerçəkliklərdən və real həqiqətdən uzaqdır.

Bu "Marş"ın bəstəkar Cavanşir Quliyevin musiqisində səsləndirilən nəqərat hissəsində isə "Qafqazın şanlı əsgəri" əvəzinə "Azərbaycan əsgəri" sözlərinin yazılması təbii və dövrün acı reallıqlarına uyğundur. Çünki 1990-cı illərin əvvəllərində işğalçı Ermənistanın silahlı hücumlarının qarşısını almaq üçün Azərbaycan ordusunun, əsgərinin mənəvi dəstəyə, ruh yüksəkliyinə ciddi ehtiyacı vardı. Bəstəkar mətn üzərində redaktə xarakterli dəyişiklik etməklə döyüşən ordu, Azərbaycan əsgəri üçün vacib, zəruri və eyni zamanda, əhəmiyyətli olan hərbi marşı yazmış, vətənpərvərlik işinin yüksəldilməsi istiqamətində öz layiqli töhfəsini vermişdir.

Ə.Dainin cəm və nəşr edərək zamanında Cümhuriyyət ordusuna ünvanladığı digər bir əsgəri "Marş"ında iftixar hissi ilə lirik "mən"in vurğuladığı vətən – sözün geniş mənasında Cənubi Qafqazdır. Mənəvi qürur qaynağı olaraq Allaha güvənən, dinə iman gətirən əsgərlərin mərdliyi, igidliyi, əyilməzliyi, cəsurluğu, özünə və komandirinə sarsılmaz inamı "Marş"da peşəkarlıqla vəsf olunmuş, vətənin sərhədlərinin mühafizəsində ayıq-sayıq dayandıqları üçün özlərini "pək şanlıyız" adlandırmaları onların fiziki hazırlığı ilə yanaşı, mənəvi qüdrətinin danılmaz göstəricisidir:

*"Biz əskər Qafqazlıyız – aləmdə İrfanlıyız,*
*Yuca Qafqaz vətənimiz – qan axıdar xəncərimiz.*
*Pək şanlıyız!*
*Qafqazlılar əkbərimiz – Allah, Allah rəhbərimiz,*
*Səməd paşa sərdarımız - qan axıdar xəncərimiz.*
*Pək şanlıyız!"* [5, s.4]

Cümhuriyyət əsgərləri irfanlıdır, dini təsəvvürlərə və biliklərə yiyələnmiş yetkin şəxslərdir. Qafqazlı olmaqları ilə qürur duyurlar və çox şanlı əsgərlərdir. Çünki sərdarları, komandirləri Səməd paşadır. Şübhəsiz ki, Səməd paşa deyiləndə Cümhuriyyət Hökumətinin hərbi naziri, artilleriya generalı Səməd bəy Mehmandarov nəzərdə tutulurdu. Marşlarda komandirlərə inam, tanrıya güvən, inanc hissi döyüşə atılan əsgərləri ruhlandırır, coşdurur, zəfərin qazanılması, əldə edilməsi üçün düşmən üzərinə hücum əhval-ruhiyyəsini yüksəldirdi.

Əbdülrəhman Dai Cümhuriyyət dövründə fəal gənc şairlərdən idi. O mütəmadi olaraq dövri mətbuatda şeirləri və publisistik yazıları ilə çap olunurdu. Hökumət mətbəəsində mürəttib peşəsində işlədiyi üçün zamanın nəbzini tutmağı bacarır, günün aktual hadisələrini poeziyaya gətirirdi. “Əskəri nəğmələr”dən əlavə onun əsgər həyatından bəhs edən və “Azərbaycan” qəzetində dərc olunan şeirləri xüsusilə diqqəti cəlb edir. O, hərbə yollanan gənclər haqqında yazdığı “Əskərlərimizə” şeirində sadə və axıcı, oynaq, poetik bir dil ilə deyirdi:

*“Ey vətənin dilavər əskərləri!*
*Ey vətənin aslanları, nərləri!*
*Şanlı, şücaətli, igid ərləri!*
*Tanrı sizə kömək olsun, yar olsun...*

*Ey yucaya qaldıranlar bayrağı,*
*Hifz eyləyin bu müqəddəs torpağı,*
*Gedin, qovun xainləri, alçağı,*
*Düşmənlərmiz vətəndən kənar olsun”.* [4, s.3]

Ə.Dainin poeziyasında maarifçilik düşüncəsi, vətənpərvərlik duyğusu, milli təəssübkeşlik hissi güclüdür. Beş bənd həcmində olan “Əskərlərimizə” şeirində müəllif böyük sevgi və sayğı ilə vətəni qorumağa gedən gənc aslanları, ərləri, nər igidləri öyür, onları obrazlı ifadələrlə vəsf edir, tərifləyir. Növbəti bənddə isə biz şairin gənclərə ağsaqqal-ağbirçək, ata-ana öyüd-nəsihətləri verdiyinin şahidi oluruq. Ə.Dai “Gedin sizi hifz edər ulu Sübhan” – deyərək əsgərlərimizə sidq-ürəkdən gələn xeyir-duasını bildirməyi də unutmamışdır.

Ə.Dainin “Könüllülər” (“Azərbaycan”, 1920, № 66), “Əsgəranın alınması münasibətilə” (“Azərbaycan”, 1920, № 69) şeirlərini “Əskərlərimizə” həsr olunmuş lirik əsərinin mövzu, süjet etibarilə davamı da adlandırmaq olar. Əsgər həyatından, döyüş və qəhrəmanlıq səhnələrindən verilmiş bədii epizodların təcəssümü şeirin canlılığına, təbiiliyinə, gerçəkliyinə inamı artırırdı. Şairin yaratdığı poetik lövhələr, real obrazlar onun seçdiyi mövzular haqqında geniş məlumatlı olması, sahənin spesifik xüsusiyyətləri barədə yetərincə bilgi əldə etməsi, hərbi işlərdə praktiki səriştəyə yiyələnməsi qənaətini təsdiqləyir.

Ə.Dainin “Bir yaralı əskərin dilindən” adlı şeiri də müharibə mövzusuna, əsgər həyatına, zamanın, dövrün çağırışlarına həsr olunmuş, vətənpərvər bir gəncin döyüş xatirələri, düşmən gülləsindən ağır yara alması və vətən uğrunda bu yara ilə öyünməsindən bəhs edilmişdir:

*“Bu bir yarədir ki, unudulmaz heç,*
*Olmuş məndə Azərbaycan nişanı”.* [3, s.3]

Əbdülrəhman Dainin “Bir yaralı əskərin dilindən” adlı şeiri Cümhuriyyətin işğal olunduğu gün – 27 aprel 1920-ci ildə “Azərbaycan” qəzetində dərc edilmişdir. Həmin gün ağır yaralar alan yalnız Milli ordunun əsgəri deyil, bütövlükdə Azərbaycan xalqı, Cümhuriyyət quruluşu, müəllifin ədalətdən, həqiqətdən yazan qələmi, həssas şair ürəyi idi. Təsadüfi deyildir ki, Əbdülrəhman Dai

Cümhuriyyətin süqutundan sonra fəaliyyətini gizli "İstiqlal" qəzetində davam etdirdiyinə görə 1923-cü ilin oktyabr ayında Azçeka tərəfindən 25 yaşında həbs edilmiş, 1924-cü ildə Ağ dənizin məşhur Solovki adalarında yerləşən İslah-əmək düşərgəsinə göndərilmiş, cəza müddəti üç ildən bir artırılmış, 1937-ci ildə Sovet repressiyasının qurbanı olmuşdur.

Cümhuriyyət dövrünün istedadlı şairlərindən biri də, əsasən "Azərbaycan" qəzetində "Davud" imzası ilə şeirləri və publisistik yazıları dərc olunan Gəncə şəhərindən müəllim Davud Ağamirzəzadə idi. O, ictimai fəal olmaqla yanaşı, İdris Axundzadənin rəhbərlik etdiyi Gəncə Türk Müəllimlər İttifaqının katibi vəzifəsində də fəaliyyət göstərirdi. Onun publisistik yazılarında "Milli dilimiz", "Gəncədə dram cəmiyyəti", İrəvan qaçqınlarının vəziyyətindən bəhs edən "Yandırıcı xəbərlər" və digər yazıları müəllifin vətənpərvər ziyalı, təəssübkeş pedaqoq, millətsevər aydın olması barədə təsəvvürlərimizi genişləndirir.

Davud Ağamirzəzadənin poetik yaradıcılığında Azərbaycan əsgərinin, milli ordunun həyatından bəhs edən marşlar, nəğmələr, şərqilər az deyildir. Şair "Əskər" şeirində elə bil milli ordu döyüşçüsünün rəngli portretini yaratmışdır:

*"Silahına sarılaraq gedərkən*
*Dağlar, daşlar həpsi sana baş əyər.*
*Vətən üçün canlə dava edərkən*
*Göydən sana bin mərhabalar enər.*

*Günəş önündə qərarmış o yüzün,*
*Həq yanında hər bir şeydən təmizdir.*
*Toz-topraqdan qıp-qırmızı o gözün,*
*Desəm inan yıldızlardan əzizdir".* [7, s.3]

Davudun eyni mövzuda, məsnəvi şəklində yazdığı və "Azərbaycan" qəzetində çap etdirdiyi digər əsəri "Azərbaycan ordusuna" adlanır. Müəllif bu şeirində ölkənin tarixi keçmişinə nəzər salır, yabançıların hücumları, basqınları nəticəsində Qafqazda "Çingiz oğulları"nın yurdsuz-yuvasız, vətənsiz qalmaq ehtimalı böyüyür, qətlü-qarət, soyqırımı vəhşiliklərinin daha geniş ərazilərə yayılması, dəhşətli faciələrin törədilməsi planı hər zaman gözlənilirdi. Çətin, ağır bir dönəmdə qardaş qardaşın köməyinə tələsir, zəkalar, güclər, qüvvələr birləşir, xain, qəddar, kəmfürsət düşmən – erməni-daşnak silahlı ordusu məğlub edilir. Bu tarixi zəfəri – 15 sentyabr Bakının qurtuluşunu həssas müşahidələri ilə dəyərləndirən müəllif yazırdı:

*"Düşmənləri əzdin, ey şanlı ordu,*
*Canlandırdın ruhsuz qalmış şu yurdu.*
*Məğlubiyyət düşmən qəlbini dəldi,*
*Qafqasyada sancağınız yüksəldi".* [6, s.3]

Cənubi Qafqaziyada Azərbaycan bayrağının, sancağının yüksəldilməsi, müsəlman Şərqində ilk Xalq Cümhuriyyətinin yaradılması yenicə təşəkkül mərhələsinə qədəm qoyan Milli Ordusunun qardaş Anadolu mehmetcikləri ilə birlikdə tarixi əhəmiyyət kəsb edən misilsiz qələbəsi idi.

Cümhuriyyət dövrü mətbuatında dərc olunan ən populyar şeirlərdən biri, həm əsgəri nəğmə, ordu marşı olaraq hərbi hissələrdə tez-tez bölük, tabor addımlarının ritmi altında səsləndirilən, həm də vətənpərvərlik mövzusunda keçirilən rəsmi tədbirlərdə emosional qiraət nümunəsi kimi aktyorlar tərəfindən ifa olunan əsər Məhəmməd Əmin bəyin "Vətən qəhrəmanlarına ithaf" olaraq yazdığı "Ya qazi ol, ya şəhid!" sərlövhəli nəzmi, atanın övladına müraciəti, vətəni təhlükədə olan xalqa zamanın çağırışıdır:

*"Haydı yavrum! Bən səni bu gün üçün doğurdum,*
*Xamırını yigidlik duyğusilə yoğurdum.*
*Türk övladı odur ki, yurdu olan toprağı,*
*Ana irzi (namusu) bilərək yad ayağı basdırtmaz;*
*Bir yabançı bayrağı,*
*Əzan səsi duyulan heç bir yerə asdırtmaz.*

*Get övladım, yilləycə oğulsuz qalayım,*
*Şu yaralı bağrıma qara daşlar çalayım!...*
*Haydı oğlum, haydı get,*
*Ya qazi ol, ya şəhid!..."* [9, s.3]

Səkkizbəndlik marşın dörd bəndi nəqəratdan ibarətdir və bu əsgəri şərqinin dinamikasını və intonasiyasını, şübhəsiz ki, yüksəldir, insanların zövqünə və şüuruna müsbət təsir imkanlarını artırır. Əksər milli ruhda yazılmış şeirlərdə Ana – Vətən obrazları eyniləşdirildiyi halda, Məhəmməd Əmin bəyin "Ya qazi ol, ya şəhid"də Ata, vətən obrazının təmsilçisi kimi çıxış edir. Atanın öz oğluna və bütün türk övladlarına çağırışı, yanıqlı hayqırtısı Vətənin və Zamanın məğrur, əzəmətli səsi kimi qəbul edilir, dinlənilir.

## Nəticə / *Conclusion*

Cümhuriyyət dövründə Azərbaycan Ordusunun qələbə, zəfər ilə nəticələnən iki tarixi yüyürüşü unudulmaz, yaddaşlardan silinməzdir. Onlardan biri 1918-ci ilin iyul-sentyabr aylarında erməni-daşnaq və bolşevik hərbi birliklərinə qarşı general Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusunun Bakının qurtuluşu ilə başa çatan hərbi əməliyyatı, digəri isə 1920-ci ilin martında – Novruz bayramı günləri Qarabağda separatçı-daşnak bandalarının qaldırdığı silahlı üsyanın yatırılması üçün general Səməd bəy Mehmandarovun komandanlığı ilə Ağdamdan Şuşaya qədər ərazilərin terrorçu quldurlardan təmizlənərək Şuşa şəhərində zəfər paradının keçirməsi milləti qürurlandıran hadisələr idi. Cümhuriyyət Ordusunun bu şanlı qələbələrində şübhəsiz ki, ədəbiyyatın, poeziyanın, əsgəri nəğmələrin, ordu marşlarının rolu, əhəmiyyəti danılmazdır. Dövrün gənc şairlərindən Əhməd Cavad, Məhəmməd Ümid Gəncəli, Hacı Kərim Sanılı, Əbdülrəhman Dai, Davud Ağamirzəzadə, Məhəmməd Əmin, Əliabbas Müznib, Ümmügülsüm, Balaqardaş Mürşüd, Əli Yusif və b. şairlərin yazdığı ordu marşlarından, əsgəri nəğmələrdən Birinci və ikinci Qarabağ müharibəsi döründə də əsgər və zabitlərimizin döyüş əhval-ruhiyyəsini yüksəltmək üçün səmərəli istifadə olunmuşdur.

## Ədəbiyyat / *References*


1. Bayramoğlu, A. "Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat". – Bakı: Elm, – 2003.
2. Cavad, Ə.. Marş. "Gənclər yurdu". Tiflis. 1918, 14 avqust, № 2.
3. Dai Əbdülrəhman. Bir yaralı əskərin dilindən / – Bakı: "Azərbaycan" qəzeti, 1920, 27 aprel № 79.
4. Dai Əbdülrəhman. Əsgərlərimizə / – Bakı: "Azərbaycan" qəzeti, – 1920, 28 mart № 61.
5. Dai Əbdülrəhman. Marş / "Əskəri nəğmələr". – Bakı: Hökumət mətbəəsi, – 1919, –
6. Davud. Azərbaycan ordusuna / – Bakı: Azərbaycan qəzeti, 1918, 8 təşrini-sani (noyabr), № 34.
7. Davud. Əskər / – Bakı: Azərbaycan qəzeti, 1919, 5 kanuni-sani (yanvar), № 79.

8. Gəncəli, M.Ü. Azərbaycan vətənim şərqisi. “Azərbaycan” qəz. 1920, 4 şübat (fev.) № 23.
9. Məhəmməd Əmin. Ya qazi ol, ya şəhid! / – Bakı: İstiqlal qəzeti, – 1919, 7 iyun, № 18..
10. Rəsulzadə, M.Ə. Xəyalmı, həqiqətmi?! “Açıq söz” qəz., – Bakı: 1918, 11 təşrini-əvvəl (oktyabr) №723.
11. Sanılı, H.K. Marş / “Yeni Şərqilər” məcmuəsi, Bakı: Novruz mətbəəsi, –1919.
12. Səttaroğlu. Ordu marşları. –Bakı: Azərbaycan qəzetinin mətbəəsi. – 1919..
13. Кавказская мусульманская армия. Собрание узаконений и распоряжений Правительства Азербайджанской Республики. Гор. Баку, 15.11.1919. № 1.
14. Собрание узаконений и распоряжений Правительства Азербайджанской Республики. – Баку: 15.11.1919. № 1.

## Военные песни в прессе периода Республики: вызовы времени и художественно-эстетические аспекты

**Эльмаддин Гулиев**
Институт рукописей имени Мухаммада Физули НАНА, докторант
E-mail: el-84@list.ru

**Резюме**. Республика Азербайджан появилась на политической карте мира как новое, независимое, свободное и демократическое государство 28 мая 1918 года. После того как члены правительства переехали из Тифлиса в Гянджу, были приняты важные решения для укрепления государственности. 17 июня 1918 года Национальный Совет Азербайджана прекратил свою деятельность после утверждения состава, прав и обязанностей второго Временного правительства.
19 июня 1918 года второе Временное правительство, возглавляемое выдающимся общественно-политическим деятелем Фатали ханом Хойским, в условиях чрезвычайных обстоятельств и сложной обстановки в стране объявило военное положение. Контроль над общественными мероприятиями был возложен на руководство Министерства внутренних дел и Кавказской мусульманской армии. По распоряжению правительства от 26 июня 1918 года название «Мусульманский корпус» официально было изменено на «Особый Азербайджанский корпус».
Призыв к расширению рядов Особого Азербайджанского корпуса, который стал основой Азербайджанской армии, путем привлечения молодых национальных сил был встречен широкой поддержкой со стороны общества, интеллигенции и писателей. Национальная гордость и энтузиазм в деле создания Национальной армии впервые выразились в военных песнях и маршах. Основной задачей является системное и всестороннее изучение военных песен и маршей, опубликованных в прессе в период Республики.
**Ключевые слова:** Республика Азербайджан, независимость, Национальная армия, военные песни, военный марш